## *MUSİQİNİN TƏDRİSİ METODİKASI*

UOT 37.01.

***Hicran Əzizağa qızı Sadıqzadə,***
*kulturologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

# MUSİQİ FƏNNİNİN TƏDRİSİ PROSESİNDƏ MUSİQİLİ SƏHNƏ ƏSƏRLƏRİNDƏN İSTİFADƏ İMKANLARI

***Хиджран Азизага гызы Садыгзаде,***
*доктор философии по культурологии*
*Институт Образования Азербайджанской Республики*

# ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ МУЗЫКАЛЬНО-СЦЕНИЧЕСКИХ ПРОИЗВЕДЕНИЙ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ ПРЕДМЕТА МУЗЫКИ

***Hicran Azizaga Sadigzade,***
*PhD in Culture Studies*
*İnstitute of Education of the Rupublic of Azerbaijan*

# THE POSIBILITIES OF USING MUSICAL SCENES WORKS IN THE PROSESS OF TEACHING MUSIC SUBJECTS

**Xülasə**: Ümumtəhsil məktəblərinin Musiqi fənni üzrə dərsliklərin Azərbaycan və dünya musiqi korifeylərinin musiqili səhnə əsərləri ilə zənginləşdirilməsi şagirdlərin estetik mədəniyyətli şəxsiyyət kimi formalaşdırılması prosesinə öz müsbət təsirini göstərir.

Musiqili səhnə əsərləri bir neçə incəsənət növünün sintezi ilə yarandığı üçün şagirdlər müxtəlif incəsənət nümunələri arasında məntiqi əlaqələr yaradır ki, bu da onların bilik səviyyələrinin inkişafında böyük rol oynayır.

Musiqili səhnə əsərlərində müxtəlif incəsənət nümunələri ilə qarşılaşan şagirdlərin ümumi mədəniyyət səviyyələrinin artması treninqlər zamanı məlum olmuşdur.

***Açar sözlər**: incəsənət, musiqi, opera, şagirdlər, not, musiqili səhnə əsərləri*

**Резюме:** Обогащение учебников «Музыки» в общеобразовательных школах музыкально-сценическими произведениями азербайджанских и мировых корифеев оказало положительное влияние на формирование учеников как эстетически культурных личностей. Музыкально-сценические произведения созданы путем синтеза нескольких видов искусства. Благодаря этому ученики создают логическую связь между различными образцами искусства, что играет большую роль в их интеллектуальном развитии. Развитие культурного уровня учеников, ознакомившихся с различными видами искусства в музыкально-сценических произведениях, было выявлено в результате проводимых тренингов.

***Ключевые слова**: искусство, музыка, опера, ученики, ноты, музыкально-сценические произведения*

**Summary:** The possibilities of using musical scenes works in the process of teaching “Music” subjects by musical scenes of Azerbaijani and world musical compositions of general schools has a positive impact on the process of formation of pupils as aesthetic cultural identity .

Since musical scene works are created by synthesis of several types of art students create logical connections between different art samples, which plays a major role in the development of their knowledge levels.

Increased general culture levels of students experiencing different art samples in musical scenes were reveled during trainings.

***Key words:** art, music, opera, pupil, notes, musical scene works*

Bildiyimiz kimi, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən qəbul edilmiş “Musiqi kurikulumu”nun I sinif üzrə “Musiqi” dərsliyində musiqili səhnə əsərlərinə rast gəlinmir. Lakin bir sıra Bakı şəhər və Bakıətrafı kəndlərin qabaqcıl musiqi müəllimləri bu gün qeyd olunan boşluğu doldurmaq üçün Azərbaycan bəstəkarlarının I sinif şagirdlərinin yaş xüsusiyyətlərinə uyğun musiqili səhnə əsərlərindən musiqidinləmə mərhələsində istifadə edirlər. Məsələn, Bakının 190 nömrəli tam orta məktəbinin musiqi müəllimi Reyhan Hacızadə I sinifdə O. Zülfüqarovun “Meşə nağılı” uşaq operasından “Şəngülüm, Şüngülüm, Məngülüm, aç qapını mən gəlim” sözləri ilə məşhurlaşan mahnını birincilər üçün səsləndirir. I sinif şagirdləri artıq bağça yaşlarında bu nağılla tanış olduqlarından ana keçinin balalarına olan çağırışını eşidəndə onu müşayiət edən musiqiyə də diqqətlə qulaq asırlar. Hətta şagirdlərdən bəziləri dinlədikləri musiqini sözləri ilə təkrarlaya da bilir.

Müəllim Reyhan Hacızadə “Ananın çağırışı”nı səsləndirdikdən sonra özü də bu musiqi nümunəsinin melodiyasını oxuyur və sonra müəllimin köməyi ilə bütün sinif onu təkrarlayır:



Parlaq milli koloritə malik bu mahnının melodiyası çox asan yadda qalır.

Digər tərəfdən şagirdlərin poeziya ilə melodiyanın düzgün şəkildə ifa etməsinə müəllim diqqət yetirir və not vəznlərinin uzunluğuna uyğun olaraq şeirin hecalarının düzgün ifasını həyata keçirə bilir.

Musiqi repertuarını mövzuya uyğun gələn və yeni təlim standartlarına cavab verə bilən əsərlərlə əvəz etmək icazəsi müəlliflər tərəfindən verildiyindən müəyyən hallarda müəllimlər repertuarda müəyyən dəyişikliklər edirlər.

Məsələn, Bakının 20 nömrəli tam orta məktəbinin müəllimi S. Rzayeva II sinifdə yuxarıda qeyd olunmuş əsərlər əvəzinə Azərbaycanın xalq artisti, professor Sevda İbrahimovanın “Nənəmin nəğməli nağılları” operasından bir sıra musiqi nümunələrini dinləmək və oxumaq mərhələsində istifadə edib.

Müəllim adı çəkilən operanın qısa məzmununu məktəblilərə danışdıqdan sonra əvvəlcədən hazırladığı bir cədvəli lövhədən asır. Bu cədvəldə operanın xeyirxah və mənfi qəhrəmanlarının adları qeyd olunmuşdur.

| **Sevda İbrahimovanın “Nənəmin nəğməli qəhrəmanları” operasının qəhrəmanları** | |
|---|---|
| **Müsbət qəhrəmanlar** | **Mənfi qəhrəmanlar** |
| 1. Meymun<br>2. Fil<br>3. Dovşan<br>4. Dələ<br>5. Maral<br>6. Ayı balası<br>7. Qu quşu | 1. Pələng<br>2. Canavar<br>3. Tülkü<br>4. Çaqqal |

Göründüyü kimi, operanın yeddi xeyirxah (müsbət), dörd yırtıcı (mənfi) qəhrəmanı var. Bunlardan əlavə, operada insan surətləri də vardır ki, bunlar xeyirxah nənə və onun nəvələridir. Burada nənə nəvələri qarşısında nağıl danışa-danışa gəzir və bəzən nənə-nəvələr səhnə qarşısına çıxmaqla tamaşaçılarla əlaqə saxlayırlar ki, bu da aktyorlarla tamaşaçılar arasında ünsiyyətin yaranmasına səbəb olur.

Müəllim cədvəldə göstərilən operanın xeyirxah, müsbət və yırtıcı, hər şeyi məhv etmək istəyən mənfi qəhrəmanlarının adını oxuyur, şa-

girdlər də müəllimin ardınca onu təkrar edirlər. Şagirdlərə məlum olur ki, heyvanlar arasında da xeyirxah və yırtıcı olanlar var. Bundan sonra xeyirxah Meymunun (hakim) ariyası səsləndirilir.




Daha sonra müəllimin köməyi ilə "Meymunun ariyası"ndan bir parçanı məktəblilər əvvəlcə notla, sonra sözləri ilə birlikdə ifa edirlər.

Kurikulum üzrə yazılmış III sinif "Musiqi" dərsliyində musiqili səhnə əsərlərindən üç opera nümunəsi (M.İ. Qlinkanın "Ruslan və Lyudmila" operasından "İran qızlarının xoru", F. Əmirovun "Sevil" operasından "Proloq", İ. Məmmədovun "Tülkü və Alabaş" operasından "Alabaşın ariyası") öz əksini tapmışdır.

Dahi Azərbaycan bəstəkarı Ü. Hacıbəylinin "Koroğlu" operasında vətənpərvərlik mövzusunda musiqi nümunələri kifayət qədərdir. Yəni operanın "Uvertürası"ndan tutmuş son "Final xoru"na qədər istənilən qədər vətənpərvərlik, xalqı istismarçılara, onlara zülm edən xanlara, paşalara qarşı mübarizəyə çağıran döyüş səhnələrini təsvir edən musiqi nümunələri var. Qeyd etmək lazımdır ki, bu nümunələr Azərbaycan xalq muğamlarımıza əsaslanmış musiqi nümunələri olduğu üçün dinləyicilər tərəfindən də maraqla qarşılanır və daha asan qavranılır. Məsələn, "Koroğlu" operasının "Uvertüra"sı si bemol mayəli "Rast", I pərdədən "Rövşənin ariozosu" mi bemol mayəli "Rast", I pərdədən "Xalqın xoru" mi bemol mayəli "Rast", III pərdədən "Rəqs" mi mayəli "Rast", V pərdədən "Xalqın xoru" do mayəli "Rast" muğamının intonasiyaları üzərində yazılmışdır. Qeyd etmək lazımdır ki, bu musiqi nümunələrinin hər biri vətənpərvərlik, qəhrəmanlıq kimi xüsusiyyətləri daşıyır və bunları dinləyənlərdə də göstərdiyimiz xüsusiyyətlərin yaranmasına səbəb olur.

Ona görə də operadan, bu və digər musiqi nümunələrindən I–IX siniflərdə geniş surətdə istifadə etmək mümkündür və hətta vacibdir.

Bu gün artıq Azərbaycan orta ümumtəhsil məktəblərinin hər birində dərslər başlamazdan əvvəl məhz Azərbaycan Respublikasının Dövlət himni səsləndirilir. Üçrəngli Dövlət Bayrağımız dalğalandırılır. Dərslərin məhz himnimizin səsləndirilməsi ilə başlamasının özü də məktəblilərimizdə mübariz əhval-ruhiyyənin yaranmasına, dərsə marağın artmasına səbəb olan vasitələrdən ən vacibidir.

Məlum olduğu kimi, şagirdlərə hər bir musiqili səhnə əsərləri, onların tərkib hissələri, əsərləri ortaya çıxaran insanlar və onların bu prosesdə rolları haqqında məlumatlar müəllim tərəfindən verilməlidir. Bu halda məktəblilərin həm ciddi musiqiyə olan maraqları artar, həm də ümumi mədəni səviyyələri də yüksəlmiş olar. Yəni gələcək şəxsiyyətin göstəricilərindən biri də onun mədəni səviyyəsinin yüksək olmasıdır, digər tərəfdən isə mədəniyyətsiz bir insan heç bir vaxt şəxsiyyət səviyyəsinə qalxa bilməz.

Böyük alim, şəxsiyyət kimi bütün dünyada tanınmış akademik Azad Mirzəcanzadə dünya musiqi klassiklərinin və Azərbaycan korifey bəstəkarlarının əsərlərini çox gözəl duya bilirdi.

Akademik-fizik Həsən Abdullayev bir şəxsiyyət olaraq, həm də boş vaxtlarında kamança alətində çalırdı.

Dünya şöhrətli fizik Albert Eynşteyn dahi şəxsiyyət olmaqla bərabər, eyni zamanda, skripka alətində V.A. Motsartın, L.V. Bethovenin sonatalarını çox gözəl ifa edirdi.

Böyük alim, dünya şöhrətli akademik Xudu Məmmədov elmi kəşflərini məhz musiqi vasitəsilə həyata keçirə bilmişdir. Heç də təsadüfi deyildir ki, onun musiqi və elm haqqında olan bir fikri bu gün də öz aktuallığını itirmir. O deyirdi: "Hər bir elmin zirvəsində incəsənət və hər bir incəsənətin zirvəsində elm durur".

Bunun üçün müəllim, eyni zamanda, tanınmış şəxsiyyətlərin həyat və yaradıcılıq yollarından, bilavasitə bu şəxsiyyətlər haqqında olan faktlardan da istifadə edə bilər.

Azərbaycan opera janrında tanınmış əsərlərdən biri də böyük bəstəkar Müslüm Maqomayevin "Şah İsmayıl" operasıdır. Bəstəkar operanın librettosunu yazmağı şair Q. İsmayılova həvalə edib. Lakin sonradan özü də bu libretto üzərində xeyli işləməli olub. Operanın süjetinin

əsasını XV–XVI əsrlərdə yaşamış və Səfəvi dövlətinin banisi olmuş I Şah İsmayılın həyatı ilə əlaqədar yaranan xalq dastanlarının variantlarından biri təşkil edir. Bu librettoda I Şah İsmayılın taxt-tac uğrunda mübarizəsi, onun şücaətləri, həm də ərəb qəbilə başçısının qızı Gülzara olan məhəbbəti naminə keçdiyi əziyyətli, əzablı yollarda baş verən hadisələr öz əksini tapır. Operadan məlum olur ki, I Şah İsmayıl öz ideyası uğrunda sona qədər mübarizə apara bilən bir insandır.

Biz yuxarıda Azərbaycan bəstəkarlarının musiqili səhnə əsərlərindən istifadə etmək üçün müəyyən bir proqram təqdim etdik. Lakin təkcə Azərbaycan bəstəkar və xalq musiqisi vasitəsi ilə dünya musiqi mədəniyyəti səviyyəsinə çıxmaq, bir şəxsiyyət kimi formalaşmaq qeyri-mümkündür. Əsl şəxsiyyət həm də mədəni bir insan olmalıdır. Yəni o, özünü insanlar içərisində apara bilməli, onlarla ünsiyyətdə ola bilməli, mədəniyyətlə, xüsusilə də musiqi mədəniyyəti ilə əlaqədar müsahibələrdə öz şəxsi, fərdi fikrini də göstərə bilməlidir. Bunun üçün isə gənc nəsil Azərbaycan bəstəkar və xalq musiqiləri ilə bərabər, eyni zamanda, dünya musiqi mədəniyyətinin korifeyləri, onların yaradıcılıqları haqqında bilgilərə malik olmalı, onların əsərlərini milli professional və xalq musiqi nümunələri ilə müqayisə edə bilməlidir.

Məhz bu deyilənləri nəzərə alaraq ümumtəhsil məktəblərimizdə musiqi fənninin tədrisi prosesində dünya musiqi mədəniyyətinin korifeylərinin tanınmış əsərlərindən ibarət proqram tərtib etməyi özümüzə borc bildik.

Ümumtəhsil məktəblərinin musiqi fənni üzrə dərsliklərin Azərbaycan və dünya musiqi korifeylərinin musiqili səhnə əsərləri ilə zənginləşdirilməsi şagirdlərin şəxsiyyət kimi formalaşdırılması prosesinə öz müsbət təsirini göstərir.

Musiqili səhnə əsərləri bir neçə incəsənət növünün sintezi ilə yarandığı üçün şagirdlər müxtəlif incəsənət nümunələri arasında məntiqi əlaqələr yaradır ki, bu da onların bilik səviyyələrinin inkişafında böyük rol oynayır.

Musiqili səhnə əsərlərində müxtəlif incəsənət nümunələri ilə qarşılaşan şagirdlərin ümumi mədəniyyət səviyyələrinin artması treninqlər zamanı məlum olmuşdur.

Uşaq incəsənət məktəblərində oxuyan şagirdlər, eyni zamanda, orta ümumtəhsil məktəblərində oxuduğundan onların ümumi mədəniyyət səviyyəsi adi orta məktəb şagirdlərindən daha yüksək olur, həm də bu cür şagirdlər yüksək mədəniyyət daşıyıcılarına çevrilirlər.

**Problemin aktuallığı.** Musiqi repertuarını mövzuya uyğun gələn və yeni təlim standartlarına cavab verə bilən əsərlərlə əvəz etmək icazəsi müəlliflər tərəfindən verildiyindən müəyyən hallarda müəllimlər repertuarda müəyyən dəyişikliklər edirlər.

**Problemin yeniliyi.** Musiqili səhnə əsərlərində müxtəlif incəsənət nümunələri ilə qarşılaşan şagirdlərin ümumi mədəniyyət səviyyələrinin artması treninqlər zamanı məlum olmuşdur.

**Problemin praktik əhəmiyyəti.** Məqalə məktəb və pedaqoji fikir tarixindən mühazirə deyən və seminar məşğələləri aparan ali məktəb müəllimlər, habelə tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. Aslanov A. Estetika aləmində. Bakı: Yazıçı, 1987.
2. Rəcəbov O. Uşaqlar və mahnılar. Bakı: İşıq, 1985.
3. Qurbanov B.O. Estetika aləminə səyahət. Bakı: Gənclik, 1977.
4. Rəcəbov O., Kazımov N., Mahmudova. Musiqi: 8-ci sinif. Müəllim üçün metodik vəsait. Bakı: Təhsil, 2015.
5. Həşimov Ə.Ş. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. Bakı: Maarif, 1970.

**E-mail:** sadiqzade_hicran@mail.ru
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli
**Redaksiyaya daxil olub:** 11.11.2018